# Suverenliyimizin rəmzi

***Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir.***

***Bu Azərbaycan Respublikası üzərində dalğalanan bayraq ikinci dəfə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarına əsasən bərpa edilmiş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul olunmuşdur. Eyni zamanda Ali Məclis Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.***

***1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.***

Azərbaycan Respublikasının Dövlət Bayrağından istifadə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu, eləcə də, həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət Bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq olunmuşdur.

Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət Bayrağı uzunluğu bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir. Üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir. Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir.



Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir. Böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-nə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60-nə bərabər olan məsafədə yerləşir. Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir. Ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı və onun təsviri, ölçülərindən asılı olmayaraq təsvirlərə həmişə dəqiq uyğun gəlməlidir.

Prezident İlham Əliyevin Azərbaycanda Dövlət Bayrağı Gününün elan edilməsi barədə 17 noyabr 2009-cu il tarixli Sərəncamına əsasən, hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

2009-cu ilin noyabr ayında Dövlət Bayrağı Günü ilə bağlı Əmək Məcəlləsinin 105-ci maddəsinə əlavə edilmiş əlavəyə əsasən, 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

# Azərbaycan bayrağı

*Ululardan uludur,*
*Xalqımın qürurudur,*
*Müstəqillik yoludur,*
*Azərbaycan bayrağı.*

*Könüllərdə qalacaq,*
*Göylərə ucalacaq,*
*Daim şəfəq saçacaq,*
*Azərbaycan bayrağı.*

*Açılan nur sabahım,*
*Odur mənim pənahım,*
*Qürurum, həm növrağım,*
*Azərbaycan bayrağı.*

*Yüz yaşı vardır onun,*
*Zəfərdən geyib donun,*
*Tutubdur haqqın yolun,*
*Azərbaycan bayrağı.*

*Yuksəklərdə olacaq,*
*Hər an zəfər çalacaq,*
*Şuşada sancılacaq,*
*Azərbaycan bayrağı.*

***Zenfira MƏNSURQIZI,***

# Tarix və ədəbiyyat dərsləri muzeydə tədris olunacaq

Tariximizin yaşadılması və gələcək nəsillərə düzgün çatdırılmasında, muzeylərin böyük rolu vardır. Çünki muzeylər tarixi keçmişimizi, müasir həyatımızı, bütün sahələrdəki nailiyyətlərimizi əks etdirən, gələcək nəsillər üçün qoruyub saxlayan elmi müəssisədir.

1400-ə yaxın tarixi və elmi əhəmiyyətə malik eksponatın mühafizə olunduğu Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində məktəblili gənclərlə fəal iş aparılır, onların formalaşması istiqamətində müvafiq tədbirlər görülür.

Eləcə də muzeyimiz yerli əhalinin, o cümlədən məktəblilərin iştirakı ilə maddi-mənəvi nümunələrin toplanılması ilə bağlı eksponatlarının sayını artırmaqdadır. Buraya gələn hər bir kəs xalqımızın qədim tarixi və ənənələri ilə bir daha əyani tanış olur, hər dəfə yenilik əldə edirlər.

Bu günlərdə şagirdlərin müəssisəmizlə əlaqəsini daha da genişləndirmək məqsədilə muzeydə "Məktəblilərlə görüləcək birgə işlər" mövzusunda tədbir keçirilib. Tədbirdə burada olan əyani vəsaitlərin mövzunun daha da dərindən mənimsənilməsinə köməklik göstərəcəyi nəzərə alınaraq, məktəblilərin tarix və ədəbiyyat dərslərinin muzeydə keçirilməsi işinə geniş şərait yaratmaq qərara alınıb.

**İlhamə MEHMANQIZI.**

# Təqdimat mərasimi keçirilmişdir

Bu günlərdə Qəbələnin xanım yazarlarından olan Şəhla Xəlilqızının ilk kitabı çapdan çıxmışdır. «Ecoprint» nəşriyyatında işıq üzü görən kitaba AYB-nin üzvü, «Qızıl Qələm» media mükafatı laureatı Emin Baratoğlu redaktorluq etmiş və ön söz yazmışdır. Nəfis şəkildə buraxılmış şeirlər toplusunun təqdimatı Qəbələ Mədəniyyət Mərkəzində baş tutmuşdur. Təqdimat mərasiminə şairə xanımın yaxınları, doğmaları və Qəbələ yazarları dəvət olunmuşdular. Təqdimat mərasimini Qərib Hüseynov açmışdır. Sonra söz tədbir iştirakçılarına verilmişdir. Şəhla xanımın müəllimi olmuş Zahir Səfərçinov şagirdi haqqında xoş sözlər söyləmiş və onu ilk kitabının işıq üzü görməsi münasibəti ilə təbrik etmişdir.




Qələm sahiblərindən Cəlil Komradlı, Günel Tapdıqqızı, Xəyal Gəncimov, Gulxar Vəfalı, Mehman Haqqın, «Əməkdar müəllim» Fərman Əzizli, Əhmad Məmmədli və başqaları təqdimatda iştirak etmiş, şeir söyləmişlər.

Yüksək səviyyədə keçən təqdimat mərasimində həmyerlimiz Ənvər Durucalı, Oğuz-Qəbələ-İsmayıllı bölgələri üzrə Yazıçılar Birliyinin rəhbəri Vüsal Oğuz, Şəhla xanımın dayısı Aslan Cəlilov, qardaşı Xələf Rəhmanov, uşaqlıq dostu Zümrüd Abduləzizova, qohumu Sevinc Xəlilova, yaxınları Sədaqət Bayramova, Məlahət Mustafayeva, Şəhla Hüseynova Teymur Rəhimli və başqaları ona yaradıcılıq uğurları arzulamışlar. Təqdimat mərasimində Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin şagirdləri Nəzrin Alməmmədova, Nazlı Ədilova, Rəşad Tarverdiyev və Fuad Aləmmədov şairə xanımın şeirlərindən nümunələr səsləndirmişlər.

**Nazlı ƏDİLOVA,**
**Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin şagirdi.**

# Xidmətlərin səmərəlilik göstəriciləri yaxşılaşdırılır

***"Azərpoçt" MMC-nin Qəbələ Filialı tabeliyindəki 1 müştəri xidmətləri, 2 səhər, 28 kənd poçt şöbələri vasitəsi ilə əhaliyə, idarə, müəssisə, təşkilatlara, hərbi hissələrə və digər korporativ qurumlara bütün növ poçt, poçt-maliyyə və kommersiya xidmətləri, o cümlədən açıqca, məktub, banderol, bağlama, pul köçürmələri, teleqramların göndərilməsi, mətbuata abunənin həyata keçirilməsi, çatdırılması və satışı, şəhərlərarası telefon danışığının, istehlak olunan qaz, su, elektrk enerjisi haqlarının qəbul edilməsi və s. istiqamətdə xidmətlər göstərir.***

Poçt filialı ilin 9 ayı ərzində proqnoz tapşırıqlarını 240480.0 manata qarşı 245095.0 manat yəni, 4615 manat artıq (102 faiz) yerinə yetirmişdir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 9986.0 manat çoxdur.

Dünya Bankının krediti hesabına həyata kecirilən "Maliyyə xidmətlərinin inkişafı layihəsi" çərçivəsində struktur islahatları aparılmış, filialın və poçt şöbələrin avtomatlaşdırılması prosesi həyata kecirilmiş, bütün xidmət və əməliyyatların "Colvir" və avtomatlaşdırılmış korporotiv informasiya sistemlərində aparılması təmin olunmuşdur.

Poçt şöbələrinin texniki avadanlıqlarla təminatı davam etdirilmiş, on lara 30 ədəd "Domen" kompüter dəsti, 7 ədəd faks aparatı, 11 ədəd surətçıxarma aparatı, 31 ədəd elektron tərəzi, 2 ədəd nəqliyyat vasitəsi verilmişdir.

Nəticədə poçt göndərişlərinin həcmi artmış, o cümlədən bağlamaların sayı- 398 ədəd, məktubların sayı 49523 ədəd, pul köçürmələrinin sayı - 23571 ədəd, teleqramların sayı 737 ədəd, elektrik enerjisindən istifasə haqlarının yığımı 1357371.0 manat, qaz istehlakı haqlarının yığımı– 1389046.0 manat, su haqqların yığımı 42399.0 manat, danışıq və abunə haqqlarının yığımı 647134.0 manat, DYP cərimə pulları 248612.0 manat, vergi rüsumları - 186671.0 manat, fond pulu -238263.0 manat olmuşdur.

Məlikli, Zalam, Yenikənd, Quşlar, Bunud, Bayramkoxalı, Zarağan, Böyük Əmili kənd poçt şöbələrinə yeni binaların tikilməsi üçün bütün sənədləşmə işləri başa çatdırılaraq aidiyyatı üzrə "Azərpoçt" MMC-yə göndərilmişdir.

Hazırda poçt filialnada pul köçürülmələrinin reallaşması, müxtəlif hesabların acılması, əhali hesabına valyuta alqı-satqısı, "VESTERN YUNİON" beynalxaq pul köçürmələrinin aparılması, DYP cərimələrinin qəbulu, "Atəşgah" və "Atasığorta" şirkətləri ilə sığorta əməliyyatlarının aparılması həyata keçirilir.

Filialın əməkdaşları çalışırlar ki, poçt, poçt-maliyyə, həmçinin kommersiya xidmətləri üzrə son texnologiyaların tətbiq edilməsi yolu ilə göstərilən xidmətlərin səmərəlilik və operativ göstəriciləri yaxşılaşdırmaqla rayon sakinlərinin məmnunluğuna nail olsunlar.

**Tükəzban OSMANOVA,**
**poçt filialının iqtisadçısı.**

# Yeni xidmət mərkəzi istifadəyə verilib

Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkəti Qəbələ şəhərində yeni Satış və Xidmət Mərkəzini istifadəyə verib.

Yeni açılmış Satış və Xidmət Mərkəzi "Bakcell" abunəçilərinə bütün növ müştəri xidmətlərindən yararlanmaq, eyni zamanda, mobil cihazlar, nömrə və aksesuarlar əldə etmək imkanı verir.

Satış və Xidmət Mərkəzin açılış mərasimində Şirkətin "Wi-Fi router" adlanan yeni məhsulu da müştərilərə təqdim edilib. Heç bir kabel çəkmədən, divarları, qapıları və pəncərələri deşmədən 32-yə qədər cihazı yüksəksürətli internetlə təmin etmək imkanı verən bu yeni məhsulun satışına artıq başlanılıb.

**"Qəbələ"**